

Ramil Bağırov

# EY:
# “Şirkətin ən dəyərli sərvəti onun əməkdaşlarıdır”

Ölkənin iqtisadiyyatını inkişafa doğru aparan "Əsrin müqaviləsi"nin imzalanması nəticəsində EY şirkəti bir sıra xarici investorlarla yanaşı Azərbaycanda öz fəaliyyətinə başladı.
EY Azərbaycanda 20 il bundan əvvəl ofis açaraq, respublikada və regionlarda peşəkar xidmətlər göstərən ilk beynəlxalq şirkət olmuşdur. Bu gün EY yerli və beynəlxalq şirkətlərə, eləcə də dövlət müəssisələrinə beynəlxalq iqtisadi məsələlərlə bağlı müxtəlif peşəkar xidmətlər göstərir. Hazırda şirkətin Bakı ofisində Azərbaycan Respublikasındakı müştərilərə xidmət göstərən 160-dan çox əməkdaşı var. EY şirkətinin həm də Gürcüstan, Qazaxıstan, Özbəkistan və Rusiyadakı müştərilərə xidmət göstərir. EY şirkətinin ümumən 150-dən çox ölkədə 700 ofisi fəaliyyətdədir. Əməkdaşlarının ümumi sayı hazırda 175 min nəfərdir. Şirkətin ən dəyərli sərvəti onun əməkdaşlarıdır. Heyətin təlimləndirilməsi Rusiya, Böyük Britaniya və ABŞ ilə mübadilə proqramları əsasında həyata keçirilir və yerlərdə davam etdirilir. EY şirkətinin təcrübəli mütəxəsissləri yerli və beynəlxalq mühasibat uçotu, xüsusilə CPA (ABŞ-ın Diplomlu İctimai Mühasibləri) və ACCA (Yüksək İxtisaslı Lisenziyalı Mühasiblər Assosiasiyası) lisenziyalarına sahibdir. CPA və ACCA proqramlarında iştirak edən işçilərin sayı ildən-ilə artır. EY şirkətinin Bakı ofisi müxtəlif peşəkar xidmətlər, o cümlədən auditor xidmətləri, vergi və hüquq xidmətləri, əməliyyatların müşayiət olunması xidmətləri, biznes məsləhət xidmətləri, Azərbaycanın və dünyanın aparıcı şirkətləri üçün yüksək səviyyəli təlim seminarları təklif edir.
2012-ci ildə ABŞ-ın "Great Place to Work" institutu EY şirkətini "Dünyanın ən yaxşı işəgötürəni" (World's Best Multinational Workplaces) beynəlxalq şirkətlər siyahısına daxil etmişdir. Bu siyahı şirkətlərdə hər il aparılan əmək şəraitinin öyrənilməsi üzrə beynəlxalq tədqiqat əsasında dünyanın 25 lider şirkətini müəyyən edir. "Universum"un 2013-cü il üzrə "Dünyanın Ən Cəlbedici İşəgötürəni" sorğusuna uyğun olaraq EY dünyada peşəkar xidmətlər göstərən şirkətlər arasında ən cəlbedici işəgötürən olmuş və bütün işəgötürənlər arasında ikinci yer tutmuşdur.

Əziz oxucularımız, müsahibimiz Ernst &Young Holdinqs (SiAyEs) Bi. Vi. şirkətinin Azərbaycan Respublikasındakı filialının rəhbər müavini cənab Rişad Dadaşevdir.

**"FİNANSİST":** Hörmətli Rişad müəllim, EY şirkətindən öncə audit sahəsində əmək fəaliyyətiniz haqqında qısa məlumat verməyinizi istərdik.

**R.DADAŞEV:** EY şirkətindən əvvəl 1999-2002-ci illər ərzində Azərbaycan Respublikasının Auditorlar Palatasında auditin təşkili və tənzimlənməsi sahəsində, 2002-ci ildən 2003-cü ilə qədər isə Azərbaycan Respublikası Hesablama Palatasında audit sahəsində peşəkar təcrübə qazanmışdım. Mütaliə ilə çox məşğul olurdum.
2003-cü ildən EY şirkətində auditor kimi fəaliyyətimi davam etdirirəm. O zaman ölkəmiz

iqtisadi inkişafla yanaşı, maliyyə uçotunun beynəlxalq standartlara sürətlə uyğunlaşdırılması mərhələsinin ilk addımlarını atırdı. Auditin inkişafı və təkmilləşdirilməsi istiqamətində görüləcək işlər çox idi. Bildiyiniz kimi, müstəqilliyimizin ilk illərində Azərbaycanda keçmiş Sovet mühasibat uçotu prinsipləri əsasında yaradılmış sistem tətbiq olunurdu. İnkişafa doğru irəliləyiş və yeniliklərin tətbiqi zəruri idi. Ölkəmizin yüksək sürətli iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası, digər sahələrdə olduğu kimi, mühasibat uçotu sahəsində də Maliyyə Hesabatlarında Beynəlxalq Standartların (MHBS) tətbiqini zəruri etmişdir. 2004-cü ildə yeni "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu isə həmin standartlara keçidin hüquqi əsasını qoymuşdur. Milli uçot prinsiplərinin müasir qlobal uçot standartları səviyyəsinə yüksəldilməsi və uyğunlaşdırılması prosesində peşəkar əməkdaşlarımızla birgə iştirak etmişik.

Hazırda Azərbaycanda ictimai əhəmiyyətli qurumlar Beynəlxalq Maliyyə Hesabatları Standartlarının qaydalarını tətbiq edirlər. Qeyd etdiyim mexanizmlərin hazırlanması və tətbiqi mühasibatlığın, audit fəaliyyətinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün artıq əminliklə deyə bilərik ki, ölkənin davamlı inkişaf strategiyasının işlənib hazırlanmasında birbaşa iştirak etməklə biz dövlət qurumlarına dəstək olmuşuq, onların müasirləşməsi və təkmilləşməsinə köməklik göstərmişik.

Bu gün qarşıma qoyduğum məqsədlər

Şirkət tərəfindən yüksək keyfiyyətli peşəkar xidmətlərinin göstərilməsini təmin etmək, onun daimi inkişafı üçün bilik və bacarıqlarımı əsirgəməmək və nəticəyə yönəlmiş addımlar atmaqdır.

Biz Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, çətinlikərin dəf edilməsi üçün yeniliklər təklif edir, iqtisadiyyatın inkişaf etdirilməsində insan amilinə, müasirlik prinsipinə xüsusi önəm veririk. Bütün bunlar həyata keçirdiyimiz layihələrdə öz əksini tapmışdır.

**"FİNANSİST":** EY dövlət qurumları, yerli və xarici icmalarla hansı birgə layihələrdə iştirak edir?

**R.DADAŞEV:** Dövlət tərəfindən hazırlanan maliyyə hesabatlarına dair tələblərin təkmilləşdirilməsi, nəzarət qurumlarının fəaliyyətinin iqtisadi mexanizmlərinin müəyyən edilməsi və beynəlxalq standartların tətbiqi layihələrində EY şirkətinin mühüm yer tutduğunu xüsusi qeyd etmək istərdim. Belə ki, EY Azərbaycanda fəaliyyət göstərməyə başladığı vaxtdan Azərbaycan Respublikası Auditorlar Palatasının keçirdiyi dövlət əhəmiyyətli strateji layihələrdə iştirak edir, öz tövsiyələrini verir və hazırda bu əməkdaşlığı davam etdirməkdədir. Qeyd etdiyim kimi, şirkətimiz beynəlxalq hesabat standartlarına keçid, hüquqi dəstək, risklərin azaldılması üzrə maliyyə vasitələri və üsullarının səmərəliyinə nəzarət prosesləri ilə bağlı, bir sıra konsaltinq layihələrini həyata keçirmişdir. Azərbaycan Respublikasının Auditorlar Palatasının cari işlərinin aparılması və əməli xidməti funksiyaların yerinə yetirilməsi üçün Şura yaradılmışdır. Şuranın tərkibinə dövlət nümayəndləri ilə yanaşı EY şirkətinin də daxil olduğu audit və konsaltinq xidmətlərini təqdim edən "Böyük Dördlüy"ün ("Big Four") nümayəndələri də daxildir. Həmin Şurada qlobal məsələlər, aktual problemlər, normativ sənədlər, auditin keyfiyyətinə nəzarət üzrə aparılmış yoxlamaların nəticələri və digər məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilir.

Azərbaycanda 20 il ərzində fəaliyyət göstərən şirkət olaraq biz maliyyə hesabatlarının formalaşmasında və təkmilləşdirilməsində, korporativ idarəetmə və kapital bazarında ümumi etibarlılığın artırılmasında fəal iştirak edirik. Misal üçün, Azərbaycanda biz Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, eləcə də Dünya Bankı kimi tənzimləyici orqanlar və siyasəti formalaşdıran qurumlarla daimi əlaqə saxlayaraq korporativ idarəetmə, maliyyə hesabatlarının hazırlanması, audit və nəzarətlə bağlı məsələlərə, eləcə də ka-

pital bazarları ilə bağlı daha geniş məsələlərə aid normativ-hüquqi bazada dəyişiklikləri proqnozlaşdırmağa, bu dəyişiklikləri təhlil etməyə, onlara təsir göstərməyə və onları idarə etməyə çalışırıq. 2012 – 2013-cü illər ərzində EY Azərbaycan ictimaiyyətinin maraq dairəsinə daxil olan korporativ idarəetmə, maliyyə hesabatlarının hazırlanması, audit, maliyyə xidmətləri, iqlim dəyişməsi, korrupsiya ilə mübarizə, daha yaxşı idarəçilik və sair geniş səpkili məsələləri əhatə etməklə qaydaları və siyasətləri inkişaf etdirmək üçün müxtəlif təşəbbüslərin əlaqələndirilməsi və həyata keçirilməsinə əhəmiyyətli töhfə vermişdir.
EY-ın müxtəlif forum və tədbirləri vasitəsilə biz korporativ idarəetmə, nizamlama və maliyyə hesabatlarının hazırlanması məsələləri üzrə ən yaxşı təcrübəni paylaşmağa çalışırıq.
Müştərilərimizin siyahısına müxtəlif biznes sahələrinin nümayəndələri daxildir. Qlobal standartlara uyğunlaşmaq məqsədilə Azərbaycanın şirkətləri MHBS çərçivəsində də fəaliyyət göstərməlidirlər. Bununla yanaşı, xarici şirkətlərlə də inkişafyönlü layihələr həyata keçiririk. Eyni zamanda, EY şirkətinin əsas məqsədlərindən biri müxtəlif seminar, treninqlər və tədbirlər vasitəsilə ölkəmizdə auditin inkişafı, şəffaflığın yüksəldilməsi və maliyyə hesabatlarının tənzimlənməsi istiqamətində bilik mübadiləsini həyata keçirməkdir. Şirkətimiz dövlət qurumları ilə əməkdaşlığa həmişə xüsusi önəm vermişdir və hazırda da bu təşəbbüsü davam etdirməkdədir. Bu əməkdaşlıq, ilk növbədə, dəyərli təcrübənin əldə edilməsi və onun tətbiqinə geniş imkanlar yaradır.
EY şirkəti Azərbaycanda fəaliyyət göstərən iri beynəlxalq və yerli şirkətlərin nümayəndələri üçün hər il MHBS-də son dəyişikliklərlə bağlı seminar təşkil edir. Təqdim olunan materiallarda MHBS-da son dövrlərdə qəbul edilmiş, düzəliş və yeniliklər haqqında məlumat və dəyişikliklərin tətbiqinə dair məsləhətlər verir.

**"FİNANSİST":** İştirakçısı olduğunuz layihələrdən hansıları qeyd edərdiniz?
**R.DADAŞEV:** Müştərilərimizin siyahısında iri neft şirkətlərinin –Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ), BiPi, LUKOYL və başqalarının adı vardır. Müştərilərimiz olan maliyyə qurumlarına Azərbaycan Respublikası Dövlət Neft Fondu, Mərkəzi Bank, Kapital Bank, Paşa Bank və başqaları daxildir. Bunlardan əlavə, yerli iri holdinqlərin də adlarını çəkə bilərəm. Hazırda xidmətlərimizdən istifadə etmək istəyən yerli müəssisələrin sayı daim artmaqdadır. Həmin qurumlar arasında ARDNŞ ilə olan layihələr xüsusi yer tutur. Belə ki, Beynəlxalq Standartlara keçid və Avrobondların buraxılışı zamanı biz onlarla birgə olmuşuq. ARDNŞ-ni Azərbaycan iqtisadiyyatının aparıcı strateji qüvvəsi hesab edirik. Həyata keçirdiyimiz layihələr çoxdur və şirkətimizin bu istiqamətdə apardığı işlər davam etdirilir.

**"FİNANSİST":** Respublikada audit-konsaltinq xidmətlərinin vəziyyəti necə qiymətləndirilə bilər? Sizcə, EY şirkətinin bu sahədə rolu nədən ibarətdir?
**R.DADAŞEV:** Hökumətin inkişaf strategiyasının bir hissəsi olaraq EY gənc peşəkarların hazırlanmasına və beynəlxalq dərəcəli mütəxəssislərin inkişafına köməklik göstərəcək innovativ mühitin yaradılmasında olduqca maraqlıdır. Xüsusi ilə vurğulamaq istəyirəm ki, EY hər zaman gənclərlə işləməyə üstünlük vermiş və daim onların peşəkar inkişafına maraq göstərmişdir. Şirkətdə işlədiyim 10 ildən çox müddət ərzində şirkət tərəfindən gənc mütəxəssislərin peşəkar inkişafına yönəldilmiş bir çox təşəbbüslərin şahidi olmuşam. Bu səbəbdən biz hər il audit, vergi və hüquq, əməliyyatların müşayiət edilməsi və məsləhət xidmətləri departamentlərinə yeni kadrlar cəlb edirik.
Sualın ikinci hissəsinə gəldikdə isə, konsaltinq xidmətlərinin iqtisadiyyatın ayrılmaz hissəsi olması yaxşı məlumdur. İndiki vəziyyəti bir neçə il bundan əvvəl yaşadığımız şəraitlə müqayisə

etsək görərik ki, son illərdə ölkəmizdə aparılan iqtisadi islahatlar nəticəsində biz öz imkanlarımızı genişləndirib yeni, uğurlu zirvələrə doğru irəliləyirik. Hazırda EY şirkəti regionda audit və konsaltinq sahəsində lider mövqeyi tutur. Bu nailiyyətlərə EY şirkəti ilk növbədə peşəkar mütəxəssislərin yüksək bacarıqları sayəsində müvəffəq olmuşdur. Qlobal təcrübənin yerli biznes mühitinə uyğunlaşdırılması göstərdiyimiz xidmətlərin əsas amillərindən biridir. EY şirkəti sağlam biznes mühitində fəaliyyət göstərir və öz xidmət sahələrini genişləndirməkdədir.
EY şirkətinin fəaliyyətinin əsas istiqamətlərindən biri də ölkənin davamlı inkişafına yönəlmiş layihələrdir. Son 10 il ərzində biz əhəmiyyətli layihələrə imza atmışıq. Bu istiqamətdə görülən bütün işlər bir dövlət qurumu ilə deyil, bir neçə təşkilatla aparılmış, auditin inkişaf konsepsiyasının işlənilməsi prosesində, audit sahəsinin genişləndirilməsi və təkmilləşdirilməsi məsələləri üzrə önəmli işlər görülmüşdür. EY şirkəti bütün peşəkarlıq meyarlarına istər idarəçilik baxımından, istərsə də lisenziyalı auditorların fəaliyyəti və inkişafı baxımından cavab verərək, qanunvericilik bazasında mövcud olan problemlərin həllində strateji əhəmiyyət kəsb edir.

**"FİNANSİST":** Bildiyimiz kimi, qloballaşma proseslərinə baxmayaraq, hər bir ölkənin maliyyə sisteminin özünəməxsus xüsusiyyətləri mövcuddur. Yeniliklərin tətbiqi bir ölkədə müsbət, digərində isə mənfi nəticələnə bilər. Bu baxımdan beynəlxalq təcrübənin tətbiqində bizim maliyyə qurumları, assosiasiyaları, beynəlxalq tədris mərkəzlərinin "qoruyucu və təhliledici" roluna necə baxırsınız?

**R.DADAŞEV:** Respublikamızda bütün istiqamətlərdə fəaliyyət göstərən qurum və müəssələr dünya iqtisadiyyatına inteqrasiya mərhələsini yaşayır və sözsüz ki, bu, beynəlxalq standartların öyrənilməsi zərurətini yaradır.

Ölkə iqtisadiyyatının inkişafının əsas amillərindən biri onun yeni peşəkarlar yetişdirməkdə maraqlı olmasıdır. Buna nümunə olaraq, dövlət orqanlarında kadr siyasətini, inkişaf strategiyasını misal gətirmək olar. EY şirkətinin də məqsədi gənc mütəxəssisləri cəlb etmək, öyrətmək, bütün yenilikləri vaxtında tətbiq etmək, müştərilərin tələblərinə cavab vermək, onları anlamaqdır. Son dövrlərdə beynəlxalq dərəcəli mütəxəssislərə xüsusi yer ayrılır, onların maliyyə sahəsinə cəlb olunması və əlavə biliklərə sahib olması stimullaşdırılır. Bu amillər ölkədə bütün sahələrin inkişafına müsbət təsir edir. Ölkəmizdə xarici şirkətlərin inkişafı və təkmilləşdırılməsi üçün bütün lazımi şərait yaradılmışdır.

**"FİNANSİST":** Mütəxəssislərinizin maarifləndirilməsində "Finansist" kimi ixtisaslaşdırılmış media məhsullarının fəaliyyətini necə qiymətləndirirsiniz?

**R.DADAŞEV:** Qeyd etmək istərdim ki, jurnal, ilk növbədə, maliyyə sahəsində maarifləndirici jurnaldır. Bu, çox vacib amildir. Burada həm mühasib, həm auditor, həm də fərdi sahibkar istədiyi istiqamətdə məlumat əldə edə bilər. Fikrimcə, jurnal vergi işçiləri üçün də bir məlumatladırıcı mənbə kimi faydalı ola bilər. Burada həm də müxtəlif ölkələrin vergi sistemləri təhlil və müqayisə edilir. Məzmun inkişafı baxımından tövsiyə edərdim ki, audit və konsaltinq sahələrində aktual məsələlərin və yeniliklərin işıqlandırılmasına daha geniş yer ayırasınız. Digər tərəfdən istərdim ki, jurnal elektron formatda da oxuculara çatdırılsın. Bu, oxucuların sayını artıracaq və əhatə dairəsini xeyli genişləndirəcək. Peşəkar fəaliyyətilə "Finansist"i maliyyəçilər üçün olduqca zəruri hesab edir və işinizdə uğurlar arzulayıram.

**"FİNANSİST":** Vaxt ayırıb jurnalımıza müsahibə verdiyiniz üçün Sizə təşəkkür edirik.